


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (24.320)

5 oktyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


***Ümummilli Liderimiz Heydər Əliyevin dünyaya göz açdığı, dirçəlməsi, inkişafı naminə böyük xidmətlər göstərdiyi, Türkiyənin dahi öndəri Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı Naxçıvan uzaq və yaxın tariximizdə türk siyasi-iqtisadi, mədəni aləminin qovşağı olaraq svilizasiyalararası dialoqa mühüm töhfələr verib, Türk dünyası liderlərinin irəli sürdüyü əsas ideyalar bu torpaqda kəsişib, bütünləşib, vahidləşibdir. Sonuncu dəfə 2008-ci il iyunun 4-də iki qardaş ölkənin – Türkiyə və Azərbaycanın prezidentləri qədim Naxçıvan diyarında görüşüb, ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıb, regionun elitasına bir sıra mühüm mesajlar vermişdilər. Düz 15 ildən sonra sentyabrın 25-də Şərqin qapısında keçirilən növbəti görüş siyasi, iqtisadi ağırlığı ilə tam fərqli formada gələcəyə dair daha perspektivli, daha qətiyyətli addımların atılması ilə müşayiət olundu...***

# Qardaşlıq münasibətlərinin, müttəfiqlik əlaqələrinin inkişafında mühüm tarixi hadisə

*Mühüm tarixi qərarlar – eyni məkan, fərqli zaman...*

Səfər proqramının detallarına toxunmadan öncə onu vurğulamalıyıq ki, liderlərin budəfəki görüşünü əvvəlkindən fərqləndirən cəhət Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbəsi, eyni zamanda xunta rejimini məhvə sürükləyən antiterror tədbirləri ilə regionda yaratdığı yeni reallıqlardan doğan siyasi müttəfiqliyin yeni üfüqlərinin əsas mərkəz kimi məhz Naxçıvan üzərindən açılması idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanmasından yola salınmasınadək verilən hər bir bəyanatda, edilən jestlərdə hər zamankı kimi səmimi atmosfer, dostluq, qardaşlıq bağlarının möhkəmliyi özünü açıq şəkildə göstərdi. Səfər çərçivəsində hər iki lider arasında təkbətək görüş, təməlqoyma və açılış mərasimləri keçirildi, anlaşma memorandumu, saziş, niyyət protokolu imzalandı, mətbuata geniş bəyanatlar verildi. Düz 33 il bundan öncə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən xalqın gələcəyi, müstəqilliyi yolunda mühüm addımların atıldığı, tarixi qərarların verildiyi, ələlxüsus da 70 ildən sonra üçrəngli Dövlət Bayrağımızın qaldırıldığı məkanda Azərbaycan və Türkiyə prezidentləri hər iki ölkənin siyasi müttəfiqliyinin daha da möhkəmləndirilməsinə böyük töhfələr bəxş edəcək İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimini keçirdilər, strateji məqsədlər hədəfləyən işbirliyi sənədləri imzalandı.

Mətbuata verilən bəyanatlarda qardaş ölkələrin liderləri bölgədə sülh, əmin-amanlığa töhfələr verən əməkdaşlıq əlaqələrinin, qardaşlıq münasibətlərinin Naxçıvan üzərindən inkişafından, Azərbaycanın suverenliyinin bərpasının regionda yaratdığı yeni siyasi-iqtisadi reallıqlardan, münasibətlərimizi üst səviyyəyə – siyasi müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsindən, ticarət tərəfdaşlığının konturlarından söhbət açdılar. Dövlətimizin başçısı 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan ayrılması, eləcə də 90-cı illərdə erməni təcavüzü nəticəsində blokadaya düşən Naxçıvanın uzun illər qaz, enerji cəhətdən çətinliklərlə üzləşdiyini diqqətə çatdıraraq təməli qoyulan yeni kəmərin diyarımızın artan tələblərini ödəyəcəyini və iqtisadi tərəqqisinə yol açacağını bildirdi. ***"İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək".*** Cənab Prezidentin də qeyd etdiyi kimi, Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən asılı olduğu üçün Ermənistanın bütün elektrik və qaz xətlərini kəsməsi muxtar respublika əhalisinin 15 il qazsız yaşamasına səbəb oldu. 2004-cü ildə İranla bağlanılmış svop müqaviləsi əsasında barter edilməklə Naxçıvana qaz verilişi təmin edildi. Təbii ki, diyarımızın yüksələn sosial-iqtisadi inkişafı, xüsusilə də xeyli sayda yeni sahibkarlıq obyektlərinin, xidmət sektorlarının yaradılması mavi yanacağa tələbatı xeyli artırdı və beləliklə də, Naxçıvana Türkiyədən "mavi yanacağ"ın verilməsi üçün qaz kəmərinin çəkilməsi II Qarabağ müharibəsindən dərhal sonra həllivacib prioritet məsələyə çevrildi. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında Naxçıvan Muxtar Respublikasına təbii qazın tədarükünə dair Anlaşma Memorandumu imzalandı. 2023-cü ilin fevral ayında Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla Prezident cənab İlham Əliyevin görüşü zamanı İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi də gündəmin əsas müzakirə məsələsinə çevrildi. İyun ayında qaz xəttinin çəkilişi ilə əlaqədar məsələlərin hüquqi çərçivəsi müəyyənləşdi, sentyabrın 25-də isə təməlqoyma mərasimi keçirildi. İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edən boru kəməri gündəlik 2 milyon, illik 730 milyon kubmetr qaz ötürmək imkanına malik olacaq ki, bununla da Naxçıvanın qaz tələbatı tamamilə ödəniləcək.



*Avropanı işıqlandıracaq Naxçıvan günəşi...*

Ölkə başçısı bəyanatında növbəti dəfə muxtar respublikanın alternativ enerji potensialına da toxundu və gələcəkdə diyarın "yaşıl enerji" məkanına çevrilməsinin əsas hədəf olduğunu açıqladı: ***"Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan "yaşıl enerji" zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı da mümkün olacaqdır".*** Bu xüsusda onu vurğulamaq yerinə düşər ki,"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da öz əksini tapan Naxçıvanın "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində artıq mühüm addımlar atılmaqdadır. Belə ki ölkə rəhbərinin tapşırığına əsasən cari ilin ötən dövründə Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji" konsepsiyasının tətbiqi, muxtar respublikanın elektroenergetika və qaz təchizatı sistemlərinin ölkə sistemlərinə inteqrasiyası və aidiyyəti digər məsələlərlə bağlı müvafiq araşdırmaların aparılması və təkliflərin hazırlanması məqsədilə işçi qrupu yaradılıb, qısa və uzun dönəmli planlar hazırlanaraq müəyyən istiqamətlər üzrə işlərə başlanılıb. İlkin mərhələdə Naxçıvanda görüşlər keçirilib, müzakirələr aparılıb, aidiyyəti üzrə tapşırıqlar verilib. Daha sonra isə investorlar, bərpa olunan enerji sahəsində fəaliyyət göstərən tanınmış, dünya səviyyəli xarici şirkətlərin yerli nümayəndəliklərinin rəhbərləri muxtar respublikaya gələrək kameral araşdırmalar apardılar. Təxminən, 8 min hektardan çox ərazinin bərpa olunan enerji mənbələri stansiyalarının tikilməsi üçün bugünkü gündə tam şəkildə yararlı vəziyyətdə olduğu müəyyənləşib. İyunun 3-də isə Bakı Enerji Həftəsinin sonuncu günü Naxçıvanda "Naxçıvan və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı" mövzusunda xüsusi sessiyanın keçirilməsi, sessiya çərçivəsində imzalanan memorandumlarla muxtar respublikanı "yaşıl enerji" zonasına çevirmək yolunda daha bir mühüm addım atılıb. Bu baxımdan sentyabrın 29-da Naxçıvan şəhərində energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan – Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransı da həlledici əhəmiyyətə malik oldu. Konfrans və forum müddətində, panel iclaslarda səsləndirilən fikirlər, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə imzalanan əməkdaşlıq sənədləri Naxçıvanın "yaşıl enerji"nin istehsalı – ixracının mənbəyi və marşrutuna çevriləcəyinə böyük mənada əminlik yaratdı...

*Beynəlxalq hüquqa əsaslanan, sülhə, əmin-amanlığa xidmət nümunəsi...*

Prezident cənab İlham Əliyev Naxçıvan görüşünün səbəb və nəticələrinə dair mətbuata verdiyi bəyanatda Qarabağda qondarma rejimə son qoyan antiterror tədbirlərindən də danışdı, Türkiyənin beynəlxalq hüquqa, qardaşlıq əlaqələrinə əsaslanan mövqeyini, Rəcəb Tayyib Ərdoğanın Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlarını bir daha yüksək qiymətləndirdi. Bəli, Türkiyə liderinin 44 günlük Vətən müharibəsinin başlandığı anda *"Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır"*, eləcə də antiterror tədbirləri zamanı *"Qarabağ Azərbaycan torpağıdır"* bəyanatları dünya siyasi elitasına ünvanlanan ciddi mesajlar kimi təxribatçı qüvvələri yerinə oturtmaqla, ölkəmizin haqq-ədalət savaşını zəfərlə başa vurmasında böyük dəstək rolunu oynadı. Dövlətimizin başçısı nitqində hər iki ölkə arasında siyasi müttəfiqliyin formalaşmasına təkan verən Şuşa Bəyannaməsinə də toxundu və bu sahədə əlaqələrin çox fəal dövrünün yaşandığını vurğuladı. Təqvimi bir qədər geriyə, iki il bundan öncəyə çəkərək üzübəri gələndə görürük ki, 2021-ci il iyunun 15-də Şuşada imzalanan, qardaş ölkələr arasında tarixi münasibətləri yeni mərhələyə yüksəldən həmin bəyannamə müharibədən sonrakı dövrdə sülhə, tərəfdaşlığa xidmət edən mühüm akt kimi qısa zamanda öz nəticələrini göstərdi. Belə ki, ölkələrimiz arasındakı siyasi dialoqlar, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edən müttəfiqlik əlaqələri rəsmi formada daha da genişləndirildi. Azərbaycanın siyasi, diplomatik və iqtisadi uğuru hesab olunan bu tarixi sənədin müddəaları Qarabağ ərazisində yaşayan erməniəsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün əlavə imkanlar yaratdı ki, bu həm də antiterror tədbirlərinin nəticəsinə aparan yolda zamanında atılan mütərəqqi addım kimi qiymətlidir. Ölkə başçısı mətbuata bəyanatında, həmçinin Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanmasını da tarixi hadisə kimi dəyərləndirdi, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcək bu layihənin uğurlu olacağına əminlik ifadə etdi, ticarət dövriyyəsinin artırılması istiqamətində önəmli addımların atıldığını və yaxın gələcəkdə qarşıya qoyulan hədəflərə çatacaqlarını vurğuladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bəyanatında Türkiyə-Azərbaycan əlaqələrinin dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədə olduğunu, ***"Bir millət, iki dövlət"*** şüarı çərçivəsində əməkdaşlığımızı, tərəfdaşlığımızı bütün sahələrdə gücləndirməyin əhəmiyyətini vurğuladı, 2023-cü il fevralın 6-da Türkiyənin 10 vilayətində baş verən güclü zəlzələlər zamanı Azərbaycanın qardaş dəstəyini, antiterror tədbirlərinin mülki əhalinin təhlükəsizliyi baxımından peşəkarlıqla aparılmasını yüksək qiymətləndirdi. *"Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra keçən üç ilə yaxın müddətdə dəfələrlə ifadə etdiyi legitim və haqlı narahatlıqları ilə bağlı lazımi cavabı, təəssüf ki, tapa bilmədi, nəticədə, özünün suveren ərazilərində antiterror tədbirlər həyata keçirmək məcburiyyətində qaldı. Bu tədbirlərin son dərəcə qısa müddətdə, mülki şəxslərin hüquqlarına yüksək həssaslıq göstərilərək uğurla başa çatdırılması bizim üçün qürur mənbəyi olmuşdur".*

Sentyabrın 25-də keçirilən Türkiyə və Azərbaycan prezidentlərinin görüşü həm də müasir, güclü hərbi-sənaye imkanlarına malik Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışı ilə regiona bir sıra mühüm mesajlar verdi. Dünyada nümunə olan iki ölkə liderinin birgə hərbi obyekt açılışı etməsi regionda sülhə, əmin-amanlığa xidmət göstərməklə həm də bölgədə hərc-mərclik, xaos, iğtişaş yaratmaq cəhdlərinə qarşı tutarlı cavabdır. Bu mənada, onu da qeyd etmək yerinə düşər ki, Azərbaycanla-Türkiyə arasında hərbi sahədə əməkdaşlıq əlaqələri son illərdə xeyli gücləndirilib, buna həm birgə təlimlərin keçirilməsini, həm ölkəmizin ordu arsenalına Türkiyə istehsalı olan silah və texnikaların, o cümlədən də Bayraktar TB2 pilotsuz uçuş aparatının daxil edilməsini, komando birliklərinin yaradılmasını, xüsusi kursların təşkilini aid etmək olar...

*Azərbaycan və Türkiyə prezidentlərinin Naxçıvan görüşünü bütün parametrlər üzrə xarakterizə etdikdə ümumi, yekun fikir olaraq əminliklə demək olar ki, bu görüş Ümummilli Liderimiz Heydər Əliyevin **"Bir millət, iki dövlət"** şüarı əsasında qardaşlıq münasibətlərinin, müttəfiqlik əlaqələrinin inkişafında önəmli hadisə kimi barış, sülh ideyaları üzərində təşəkkül tapan Türk dünyasının tarixinə öz möhürünü vuracaq. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: **"...bu gün Azərbaycan-Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın, heç kim bizim daxili məsələlərimizə burnunu soxmasın. Biz bunu istəyirik".***

Nail ƏSGƏROV

# XANKƏNDİ AZƏRBAYCAN torpağıdır





***Adlarını heç zaman başda çəkmək istəmədiyim erməni millətçilərinin davam edən terror hücumlarına qarşı 19 sentyabr 2023-cü il tarixdə şanlı Azərbaycan Ordusu tərəfindən başladılan və 24 saatdan da az sürən uğurlu antiterror əməliyyatları nəticəsində dünya Qarabağın inzibati mərkəzi Xankəndinin adını bir daha duydu. Xankəndi Azərbaycan torpağıdır!***

35 il əvvəl, 1988-ci ildə artıq özünün ən güclü dövrünü artıq arxada qoyan sovetlər dövlətinin üzvü olan respublikamızın ən varlı bölgələrindən biri olan Qarabağdakı erməni toplumunun yuxusunu qarışdıran və daha sonra illər uzunu burada əbədi yaşamış insanların çörəyinə zəhər qarışdıran bədnam "Miatsum" sərsəmləməsinə qədər buradakı azərbaycanlılarla yan-yana yaşayan bütün digər etnik azlıqlar da Xankəndinin tarixi bir Azərbaycan şəhəri olduğunu yaxşı bilirdi. Bu gün Ermənistanın açıqca dəstəklədiyi separatizmin tamamilə tarixə gömüldüyü, işğalçı dövlətin belə tanımadığı qondarma qurumun özünü ləğv etdiyi və cinayətkar xunta rəhbərlərinin bir-birinin ardınca yaxalanıb ədalətə təslim edildiyi bir zamanda artıq gözlər gələcəyə, ermənəsilli vətəndaşların Azərbaycana reinteqrasiyası məsələlərinə, 30 il ərzində normal inkişafdan geri düşmüş regionun yenidən bərpasına və öz əzəli sakinlərinə qovuşması proseslərinə dönmüşdür. Bunun, əlbəttə, çox çətin deyil, amma asan da olmayacağını yaxşı bilən Azərbaycan dövləti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında həm diplomatik müstəvidə, həm də münaqişə sonrası Qarabağda aparılan bərpa işlərində görünməmiş əzm nümayiş etdirir. Çünki 30 il səbir edib sonunda şəhid qanları bahasına tam suverenliyinə qovuşan ölkəmiz Xankəndinin də sabahının daha aydın və daha şəffaf olacağından əmindir. Amma gəlin bu günün fonunda keçmişə də bir nəzər salaq.

Xankəndi XVIII əsrin axırlarında Azərbaycanın mühüm iqtisadi və mədəni mərkəzlərindən biri olan Qarabağ xanlığında, Şuşanın 10 kilometrliyində salınmışdır. İlk illər Xankəndidə ancaq azərbaycanlılar, xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınıb.

XIX əsrin əvvəllərində Rus işğalından sonra Xankəndinə İrandan köçürülən ermənilər yerləşdirilib, onlar da yaltaq və itaətkar olduqlarına görə çar ordusunun hərbi hissələrində və dövlət idarələrində işlə təmin ediliblər. Lakin bununla yanaşı, 1847-ci ilə aid Rusiya xəritələrində qəsəbə rəsmi şəkildə Xankəndi adı ilə göstərilib. Şəhərin inkişafı, əsasən, XX əsrin əvvəllərindən başlayır. Belə ki, 1900-cü ildə Xankəndidə 3 min, 1939-cu ildə şəhərdə 10 min, 1959-cu ildə 20 min, 1970-ci ildə 30 min, 1988-ci ildə 60 min əhali yaşamışdır.

Sovet hakimiyyətinin ilk illərindən başlayaraq erməni millətçilərinin Azərbaycana əsassız torpaq iddiası ozamankı Moskvanın dəstəyi ilə yeni forma almağa başladı. 1923-cü ildə Azərbaycanın tərkibində qalmaqla Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkil edilməsi və Xankəndi qəsəbəsinin adının dəyişdirilərək bədnam Stepanakert adlandırılması hələ o zaman əkilmiş fitnə toxumları kimi bugünkü ermənilərin beynində metastaz vermiş bəd şişlərin ilk hüceyrələri idi. Daha sonra ötən əsrin ikinci yarısına qədər yenə də əsassız səbəblərlə Azərbaycandan parça-parça torpaq qoparmağa müvəffəq olmuş ermənilər SSRİ-nin çöküşündən istifadə edərək yenidən torpaq iddialarına əl atdılar. 1988-ci ildə Xankəndidə baş qaldıran separatçılar guya Qarabağın Azərbaycanın tərkib hissəsi kimi iqtisadi-mədəni inkişafdan geri qalması və bunun üçün regionun Ermənistana birləşdirilməsi kimi sərsəm tələblər irəli sürür, terror əməlləri törədirdilər. Halbuki o dövrdə mərkəzi Xankəndi şəhəri olan vilayətdə bütün Cənubi Qafqazda tanınan ipək kombinatı, ayaqqabı, xalça, tikiş fabrikləri, süd kombinatı və şərab zavodu fəaliyyət göstərirdi. Buradakı elektrotexnika zavodunun, mebel fabrikinin, tikinti materialları kombinatının məhsulları geniş tələbat görürdü.

Ayrıca olaraq, əvvəldə də qeyd olunduğu kimi, hər 20 ildən bir regionda əhali sayının iki dəfə artması bura üçün böyük inkişaf göstəricisi idi. Həm də bu müəssisələrin bir çoxu Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə tikilmiş, on minlərlə yerli sakin yüksək əməkhaqqı, mənzil və digər sosial dəstəklə təmin edilmişdir. İqtisadi sahədəki inkişaf humanitar sahəyə də təsir etmiş, o dövrdə Xankəndidə sovxoz texnikumu, tibb və musiqi məktəbləri fəaliyyət göstərmiş, 1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialı açılmışdır. 1973-cü ildə filial respublika rəhbəri, görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə müstəqil pedaqoji instituta çevrilmiş, onun erməni, Azərbaycan və rus bölmələri fəaliyyət göstərmişdir. Ağdama qədər gələn dəmir yolu xətti Xankəndinə də çəkilmiş, şəhərdə müasir dəmir yolu stansiyası inşa edilmişdir. Qeyd edək ki, ozamankı inkişaf təkcə Xankəndi üçün deyil, bütün Qarabağ üçün xarakterik olub, Azərbaycanın resursları hesabına yaradılmışdır.




Ancaq indi Qarabağın tamamən azad olunmasından sonra Azərbaycanın reinteqrasiya təkliflərinə rəğmən ötən 30 ildə bulaşdıqları bütün cinayətlərin və kirli əməllərin qorxusundan qaçaraq Ermənistana üz tutan separatçıların yuxu kimi xatırladığı həmin gözəl günlər artıq tarixdə qalıb. Başqalarının torpaqları hesabına böyük dövlət qurmaq xəyalları ilə başlatdıqları iyrənc əməllər tezliklə Qərbi Azərbaycanda, Qarabağda və bütün Azərbaycanda yaşayan soydaşlarımızın kabusuna çevrildi. Ermənilər harada gəldi azərbaycanlıları qətl etdi, qadın, uşaq və qocalara işgəncə verdi, cəsədləri vandalca təhqir etdi, yurdundan qovulmuş insanların evlərinin qapı-pəncərəsini, divarların künc daşlarını belə söküb apardılar. Bu gün artıq Azərbaycan güc strukturlarının tam nəzarət etdiyi Xankəndi şəhərində Ermənistan işğalına qədər yaşamış 17 minə qədər azərbaycanlı sakin də erməni separatizmindən əziyyət çəkmiş, çoxsaylı itkilər vermişdir. Xankəndidə yaşamış sonuncu azərbaycanlı 1991-ci ilin dekabrında bu şəhəri tərk etməli olmuşdur.

Erməni işğalı altında qaldığı 30 ildən artıq dövrdə Xankəndi hər cür kriminal ünsürlərin məskəninə çevrilmişdir. Buradakı bataqlıqda özlərinə yuva qurmuş və sonralar işğalçı Ermənistanın keçmiş rəhbərləri olmuş Robert Köçəryan, Serj Sarkisyan və bu günlərdə yaxalanan Vardanyan, Arutunyan və digər xunta tör-töküntüləri ilə yanaşı, Xankəndi buraya qeyri-qanuni səfər edən ermənipərəst Fransa, ABŞ, Almaniya siyasətçilərinin, Çin, İran, Hindistan, Livan mənşəli iş adamlarının, narkotacirlərin, silah və antik əşya qaçaqmalçılarının, hətta Ermənistanda hələ də fəaliyyət göstərən vaxtı keçmiş Metsamor Atom Elektrik Stansiyasının tullantılarının da məskəninə çevrilmişdir. Bütün bu canlı və cansız "tullantılar" zaman keçdikcə daha da çürüməklə təkcə ölkəmiz üçün deyil, bütün Cənubi-Qafqaz üçün böyük təhlükə törədirdi. Ta ki Azərbaycan Ordusunun 27 sentyabr 2020-ci ildə başlatdığı əks-hücumu ilə 44 gün ərzində erməni faşizminin belinin qırılaraq üzü cəhənnəmə doğru göndərilməsinədək Qarabağ, onun işğal altında qalmış ətraf rayonları bütün planetimizin qara bir ləkəsi kimi hər kəsi narahat edirdi.

Xankəndidəki lokal xarakterli antiterror əməliyyatları nəticəsində məhv edilmiş dırnaqarası rejimin son ünsürlərinin Laçın yolu ilə hərəkət edən dolu maşın karvanları 30 il əvvəl eyni yollarda, amma əks-istiqamətdə ac, ayaqyalın hərəkət edən azərbaycanlıları bir daha xatırladır. Əgər o zaman evləri qarət olunmuş və ikisaatlıq möhlətlə evlərindən qovulmuş azərbaycanlılara erməni terrorçuları avtomat silahlar tuşlayır, onları təhqir edirdilərsə, bu gün küləkdən qopub düşən çürük meyvələr kimi yola düzəlib atılmalı əşyalarını və hətta atlarını, qoyun sürülərini rahatca Ermənistana daşıyan ermənilərə Azərbaycan əsgəri və Azərbaycan polisi yalnız su, qida və yanacaq yardımı edir, jurnalistlər onlara mikrofon uzadaraq bəd əməllərinin nəticəsi olan acı aqibətlərindən etiraflarına şahidlik edirlər. Budur fərq! Bu fərqi anlamayan ermənilər və ermənikimilər isə hələ də nədənsə erməni nağılının bitdiyini həzm etməyərək başqa xəyallar qurmaqdadırlar. Ancaq gec-tez bu reallığı da anlayıb, bu başlarına gələnlərin bir zamanlar əliyalın azərbaycanlılara qarşı törətdikləri hər cür cinayətlərə görə UCA HAQQIN CƏZASI olduğunu biləndən sonra yerdə qalan ermənilər Azərbaycan vətəndaşı kimi Qarabağda qalıb yaşamağın da fərqini görəcəklər.




SSRİ-nin dağılmasından sonra heç bir şəkildə dünyəvi dövlət qura bilməyən ermənilər dilənçi payı qrantlar, diaspora yardımı və 60-cı illərdən qalma köhnə sovet silahları ilə ovundurulmuş, aldadılmışlar. Nəticədə, bütün regionun Azərbaycan öncüllüyündəki iqtisadi layihələrindən kənarda qalmış, sərhədlərinin belə rus əsgərləri tərəfindən qorunduğu, iri müəssisələrinin Rusiya mülkiyyətinə verildiyi Ermənistan adlı bir miskin dövlət halına gəlmişdir. Ermənilər qanunsuz statusu hər vəchlə qoruyub saxlamağa çalışır, unudurdular ki, dünyəvi inkişaf hər danışıqlarda Azərbaycan dövlətinin onlara təklif etdiyi imtiyazlar, hüquqların təminatı, insanca daha yaxşı yaşamaq ola bilərdi.

Bu gün bədnam "Artsax" kəlməsinə görə üzr istəyən erməni rəsmilərinin gözü, deyəsən, açılıb. Yevlağa, Xocalıya müzakirələrə gələn erməni təmsilçiləri Şimaldan, Cənubdan yanacaq, ərzaq diləndikləri qarınlarının doymayacaqlarını dərk edərək Azərbaycan dövlətinin onlara uzatdığı yardım əlindən möhkəm tutublar. Ancaq hər kadrdan gördüyümüz kimi ürəklərindəki kin, nifrət gözlərindən oxunsa da, gələcəkdə bir daha xəyanət yolunu tutsalar, antiterror əməliyyatından bir gün sonra içdikləri "Sirab" suyunun, yedikləri Zirə çörəyinin burunlarından gələcəklərini də yaxşı bilirlər. Bunu biz Azərbaycan xalqı yox, 200 illik tarix deyir. Bu gün Laçın yolundan keçən minsifət ermənilər heç bir təzyiq altında olmadıqları halda yenə hiylə işlədərək gah Qorbaçovu, gah özlərini lənətləyir, gah da azərbaycanlılarla duzçörək kəsdiklərini utanmadan deyirlər. Qorbaçovu deyə bilmərəm, amma Uca şəhidlərimizin ruhuna and içərəm ki, nə qədər ki, onlar Azərbaycanın ərazilərinə kəc gözlə baxır, bircə nəfər də olsun, erməni ilə bir duzçörək söhbəti olmayacaq. İstəyir lap min il keçsə də!

Bununla yanaşı, biz sabahımıza nikbinik. Bu nikbinlik 10 noyabr 2020-ci ildən sonra Qarabağda başlanan genişmiqyaslı quruculuq və bərpa işlərində, erməni işğalının yaralarının sağalması yönündə dövlətimizin güclü iradəsi hesabına daha da möhkəmlənir. İşğaldan azad olunmuş yerlərdə inşa olunan ağıllı kəndlər, hava limanları və yollar ermənilərin nə qədər sökücü və dağıdıcı olsalar da, xalqımızın bu dağıntıların üzərində yeni bir cənnət Qarabağ inşa edəcəyini artıq bütün dünyaya nümayiş etdirir. Mədəniyyət paytaxtımız Şuşanın, Qafqazın Xirosiması Ağdamın, Zəngəzurun qapısı Zəngilanın ardınca Xankəndiyə də dəvət olunacaq dünya liderləri, diplomatlar və media təmsilçiləri, əslində, erməni nağılındakı yeraltı təpəgözlərin nə qədər təhlükəli olduğunu bir daha görəcəklər. Reinteqrasiya proseslərində dinc quruculuq işləri ilə yanaşı, belə reallıqların da gündəmdə saxlanılması işğal xülyalarından qurtula bilməyən revanşistlərin ağzının yumulmasının ən yaxşı dinc vasitəsi olacaq. Hər halda bu qədər rüsvayçı məğlubiyyətdən sonra yeni bir "Dəmir yumruq" zərbəsi yeməkdənsə, Qarabağa gələcək "dark turizm" həvəskarlarının paylaşımları qarşısında üzü qızarmaq ermənilər üçün ən yüngül cəza olacaq. Əgər utanan üzləri varsa!

Otuz il ərzində Qarabağı viran qoymuş qondarma rejimin süqutundan sonra yaranan yeni mərhələ, yəni reinteqrasiya təkcə dağıntıların və qırılmış əlaqələrin yenidən bərpası, sülh münasibətlərinin qurulması ilə deyil, ermənilərin beyninin dərinliyinə qədər nüfuz etmiş xəstəliyin müalicəsi ilə də davam etdiriləcək çətin bir proses kimi görünür. Çünki Qarabağda qalmaq və Azərbaycan vətəndaşı kimi daha yaxşı yaşamaq seçimi edən ermənəsilli vətəndaşlar hər nə qədər səmimi və ya qeyri-səmimi bir istəklə ölkəmizdə yaşasalar da, hələ uzun müddətcə onlar ən azından Ermənistanın və xaricdəki ermənilərin psixoloji təsirləri altında qalaraq tipik erməni davranışlarından əl çəkməyəcəklər. Misal üçün, sabah hansısa bir səbəbdən Xankəndidə bir elektrik və ya qaz kəsintisi, yaxud bir sel ucbatından körpü dağıntısı olarsa, bunun erməni lobbisi tərəfindən necə və hansı hay-haşirlə tirajlanacağını, az qala "soyqırımı" səbəbi kimi qələmə veriləcəyini proqnoz etmək çətin deyil. 30 sentyabrdakı Los-Anceles erməni provokasiyaları bunun isti faktıdır. Ona görə də ermənilərlə onların başa düşəcəyi dilin istənilən yerdə və məqamda hələ qorunub saxlanılması, bunun müsbət təcrübəsinin həmişə nəzərdə tutulmasının gələcək reinteqrasiya proseslərində faydalı olacağını düşünmək olar.

*Azad Qarabağda bir daha qanlar axıdılmaması, insanların köçkün düşməməsi naminə ediləcək hər cür humanitar addımı dəstəkləyən Azərbaycan dövləti üçün onun milliyyətindən və dinindən asılı olmayaraq, hər bir vətəndaşının rahat və xoşbəxt yaşayışı, bu zəngin bölgənin insanlarının da zənginlik içində olması ən böyük arzusudur. Belə olduqda çox yaxında, bəlkə də, heç 5-10 il keçməmiş Azərbaycanın güclü iqtisadi və mədəni potensialını, beynəlxalq nüfuzunu öz şəxsi rifahında görəcək sadə ermənilər də bu dəfə onlara bu qara tarixi yaşatmış bütün ideoloqlarının mənfur izlərini öz yaddaşlarından söküb atacaq, azərbaycanlılarla birgə yaşayacaqlar.*

✍ **Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## “Heydər Əliyev: tariximizdə və taleyimizdə” kitabının təqdimatı keçirilib



***AMEA Naxçıvan Bölməsində Ulu Öndər Heydər Əliyevə həsr olunmuş yeni kitabın təqdimatı keçirilib.***

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və filologiya üzrə fəlsəfə doktoru Aliyə Quliyevanın həmmüəllifliyi ilə nəşr olunan “Heydər Əliyev: tariximizdə və taleyimizdə” kitabının təqdimat mərasimini giriş sözü ilə Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

Akademik xatırladıb ki, ölkə başçısı cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycanda “Heydər Əliyev İli” elan olunmuşdur. İl çərçivəsində ölkəmizdə və dünyada Ümummilli Liderin həyat yolunun və zəngin siyasi irsinin öyrənilməsinə, təbliğinə xidmət edən müxtəlif tədbirlər keçirilmiş, çoxsaylı əsərlər dərc olunmuşdur. İsmayıl Hacıyev diqqətə çatdırıb ki, təkcə Azərbaycan Milli Elmlər Akademiyası və onun nəzdində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələri əməkdaşlarının bu günədək Ümummilli Liderdən bəhs edən 40-a yaxın kitab və monoqrafiyası nəşr olunub. İlin sonuna qədər bu sayın artacağına əminliyini bildirən bölmə sədri qeyd edib ki, Naxçıvan bölməsi əməkdaşları mətbuatda mövzu ilə bağlı müntəzəm çıxış etməklə yanaşı, həm də ölkənin müxtəlif qurumları tərəfindən “Heydər Əliyev İli” çərçivəsində hazırlanan bəzi kitab və monoqrafiyaların həmmüəllifləridir. Bu fəallıq isə Ulu Öndərin irsinə sevgidən qaynaqlanır.

İsmayıl Hacıyev “Heydər Əliyev: tariximizdə və taleyimizdə” kitabının sistemli tərtib xüsusiyyətlərindən, əhatə etdiyi mövzuların aktuallığından söz açıb, müəllifləri ərsəyə gətirdikləri əsər münasibətilə təbrik edib.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov məruzəsində bildirib ki, yeni nəşrin elmi redaktoru və “Ön söz”ün müəllifi akademik İsmayıl Hacıyev, rəyçisi isə dosent Ramiz Qasımovdur. Kitabda yer alan məqalələrdə Ulu Öndərin siyasi fəaliyyətinin müxtəlif dövrlərində Azərbaycan, Türk dünyası, eləcə də xalqımızın taleyüklü problemlərinin həlli istiqamətində həyata keçirdiyi tədbirlər elmi düşüncə işığında təhlil edilir.

Elxan Məmmədov “Heydər Əliyev: tariximizdə və taleyimizdə” kitabının Ümummilli Lider Heydər Əliyev haqqında ortaya qoyulmuş nəşrlər arasında öz layiqli yerini tutacağına inamını ifadə edib.

Məruzənin ardından İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçiləri, filologiya üzrə fəlsəfə doktorları, dosentlər Zülfiyyə İsmayıl və Aygün Orucovanın çıxışları dinlənilib.

Çıxışlarda Əbülfəz Quliyevin elmi araşdırmalarında Heydər Əliyev irsinin və dahi liderin töhfə verdiyi sahələrin tədqiqi məsələsindən söz açılıb. Kitabda müəlliflərin toxunduğu mövzuların mahiyyəti təfərrüatlı təhlil olunub, əsərə daxil edilən hər məqalənin səsləşdiyi tarixi reallıqlara diqqət çəkilib.

Sonda AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev müəlliflər adından göstərilən diqqətə görə tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

## Ombudsman Ordubad şəhər tam orta internat məktəbində olub

Əhalinin sosial qayğıya ehtiyacı olan qruplarının hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbinə başçəkmə həyata keçirilib.



Başçəkmə zamanı müəssisənin yataq və tibb otaqlarına, siniflərə, yeməkxanaya, ərzaq anbarına və digər obyektlərə baxış keçirilib, qidalanma səviyyəsi, tibbi-sosial xidmətin və asudə vaxtın təşkili vəziyyəti araşdırılıb. Müəssisədə təhsil alan və yaşayan uşaqların saxlanma şəraiti və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələləri, habelə uşaqların hüquqlarının təmin olunması vəziyyəti öyrənilib, uşaqlarla kollektiv söhbətlər aparılıb.

Sonda uşaqların asudə vaxtlarının daha səmərəli təşkili məqsədilə müəssisə rəhbərinə tövsiyələr verilib.

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti*

## “Vətən uğrunda” medalı şəhidin ailə üzvlərinə təqdim edilib

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2023-cü il 25 iyun tarixli Sərəncamına əsasən şəhid Səbuhi Tağıyev “Vətən uğrunda” medalı ilə təltif edilib. Şahbuz Rayon İcra Hakimiyyətində bu münasibətlə keçirilən tədbirdə şəhidin ailə üzvləri və digər dövlət orqanlarının nümayəndələri iştirak ediblər. Əvvəlcə ölkəmizin ərazi bütövlüyünün qorunması və suverenliyinin bərpası zamanı canından keçən qəhrəmanlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şahbuz Rayon Şöbəsinin rəisi Qorxmaz Şükürlü çıxış edərək Səbuhi Tağıyevin 2023-cü il 11 aprel tarixdə Laçın şəhəri yaxınlığında erməni təxribatının qarşısını alan zaman göstərdiyi şücaətdən danışıb.

Sonra Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev “Vətən uğrunda” medalını şəhidin ailə üzvünə təqdim edib.

**✍ Sürəyya QƏDİMƏLİYEVA**

## Elm, maarif ziyası bəxş edən müqəddəs peşə sahiblərimiz

***5 oktyabr – Beynəlxalq Müəllimlər Günü UNESKO-nun qərarı ilə 1966-cı ildən qeyd edilir. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul olunub. Beynəlxalq Müəllimlər Günü bütün dünyada müəllim əməyini qeyd etməyə, parlaq zəkaların və istedadlı gənclərin bu peşəyə cəlb olunmasına və bu sahədə saxlanılmasının həlli yollarını tapmağa və ümumiləşdirməyə aparmağa imkan yaradır.***






Azərbaycanda Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. Ölkəmizdə bu günə dövlət səviyyəsində diqqət ayrılır.

Ümummilli Liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. Dahi rəhbər öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətlərini yüksək qiymətləndirirdi. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. Ümummilli Lider deyirdi: ***“Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir”.***

Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Müəllim peşəsini seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gənclərimiz müəllim olmaq istəyirlər. Çünki müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz***



***yüksək maaş alırlar...”*** Muxtar respublikada pedaqoji kadr hazırlığındakı təkmilləşmələr, yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması, ümumtəhsil məktəblərinin bilikli pedaqoji kadrlarla təmin olunması diqqətdə saxlanılmışdır. Yeni tədris ili üçün isə ümumtəhsil məktəblərində 200 vakant yer üçün müəllimlərin işə qəbulu həyata keçirilmiş, onlardan ən yüksək nəticə göstərən 135 gənc kadr 2023-2024-cü tədris ilindən pedaqoji fəaliyyətə başlamışdır. Bu tədbirlərin davamı olaraq sentyabrın 14-dən ümumtəhsil müəssisələrində vakant yerlərin kadr təminatını ödəmək üçün müəllimlərin işə qəbulu imtahanında tutulmayan və ya yeni yaranan vakant yerlərə müvafiq keçid balını toplayan namizədlərin muxtar respublikada ilk dəfə olaraq müddətli müqavilə əsasında işə qəbulu prosesi həyata keçirilib. Namizədlərə 138 vakant iş yeri təklif olunub. Təklif olunan vakant yerlərdən 66-sı namizədlər tərəfindən seçilib. Onlar sentyabrın 18-dən başlayaraq ümumtəhsil məktəblərində işlə təmin olunub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən 2023-2024-cü tədris ili üçün, ümumilikdə, 202 müəllim işlə təmin olunub ki, onların da əksəriyyəti gənclərdir.

Muxtar respublikada müəllim əməyi daim yüksək qiymətləndirilmiş, 400-dən çox müəllim Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, “Tərəqqi” medalı ilə təltif edilmişdir. Yaradılan şərait və müəllim hazırlığı istiqamətində görülən tədbirlər onların fəallığını artırmış, cari tədris ilində




ölkə üzrə keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsində muxtar respublika müəllimlərindən 2-si qalib olmuşdur.

Ölkəmizdə müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Belə ki, 2022-ci ilin yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz, dövlət peşə təhsili müəssisələrində idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılmışdır. Həmçinin ümumi təhsil müəssisələrinin direktor və direktor müavinlərinin vəzifə maaşlarına təhsilalanların sayına görə, təhsilverənlərin maaşlarına isə sertifikatlaşdırmanın nəticəsinə görə aylıq əlavələr edilmişdir.

Muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı, tədrisin yüksək səviyyədə təşkili üçün yaradılan



müasir təhsil infrastrukturu, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin təhsilə tətbiqi, müəllim nüfuzunun artırılması istiqamətində həyata keçirilən tədbirlər müəllim əməyinin bəhrəsini artırmış, təhsildə uğurlu nəticələr əldə olunmuşdur. Muxtar respublikada keyfiyyətli tədris mühitində öz sənətini sevən kifayət qədər peşəkar müəllimlər formalaşmışdır. Bunların sırasında 1500-dən artıq gəncin olması onları bir araya gətirəcək birliyin yaradılmasına zərurət yaratmışdır. 2021-ci ildə “Naxçıvan Gənc Müəllimlər Assosiasiyası”nın təsis konfransının keçirilməsi yaddaqalan hadisə olmaqla yanaşı, gənc müəllimlər arasında əməkdaşlığı, təcrübə mübadiləsini daha da inkişaf etdirmiş, onların fəallığını artırmış, peşəkar və fərdi inkişaflarına öz töhfəsini vermişdir.

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti*

# O təkcə öz ömrünü yaşamırdı...
## Özü getdi, xatirələri bizimlə qaldı

***…Ömür axıb gedən zamanın bizə düşən kiçik bir hissəsi, çətin, əzablı yollardan, xoş və gərgin günlərin təəssüratlarından, xatirələr və arzularla qovuşan anlardan bütövləşmiş vaxt ölçüsüdür. Ömrünün 74-cü ilində əbədiyyətə yol açan Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər Birliyinin və Naxçıvan Mətbuat Şurası idarə heyətinin üzvü Elman Məmmədovun keçdiyi ömür və tale yoluna nəzər salanda onun təkcə öz ömrünü yaşamadığını görürük. Bu gün onun haqqında keçmiş zamanda danışmaq nə qədər ağır olsa da, zamanın hökmü heç nəyə baxmır, heç nə ilə hesablaşmır. Cəfakeş valideyn, gözəl dost, əsl ziyalı, ömrü boyu qəlbən mətbuata bağlı insan kimi daim onu tanıyanların, çətində, darda əlindən tutanların ümid yeri idi Elman Telman oğlu...***

Bir neçə gündür ki, sənsizik, Elman müəllim. Sənsizliyi yaşayanların adlarını çəkmirik; daha doğrusu, çəkə bilmirik. Bir deyil axı onlar, beş də deyillər – səni yaxından tanıyanların hamısı kədər içindədir. Ona görə adlarını çəkmirik ki, kimisə unuda bilərik – inciyərlər, küsərlər. Buna haqları da var! Həmişə qapına deyə-gülə gəlirdik. O gün o qapı bizim üçün Elman müəllimsiz yetim kimi göründü. Çünki sən daha o qapıdan girməyəcəksən... O gün səni o qapıdan haqq dünyasına yola saldıq.

...Kişi ömrü yaşadın bu fani dünyada, belə tanıdılar səni. Ürəyin saflıqdan yoğrulmuşdu. Gəncliyində bu saflıqdan başın az bəlalar çəkməmişdi. Naqisliyə, biganəliyə, laqeydliyə, əyriliyə, ikiüzlülüyə, riyakarlığa, vəzifəsinə dədəsinin malı kimi baxanlara dözə bilmirdi ürəyin, sarılırdın sənə həmişə vəfalı olan qələmə; açırdın sandığı, tökürdün pambığı. Bu da o dövrün ixtiyar sahiblərinə xoş gəlmirdi. Öz postlarından istifadə edib sənə təzyiq göstərirdilər. Ürəyin ağrıyırdı belə ədalətsizliyə. Ömrünün bu çağında səni yaman yerdə yaxaladı ürəyin. Bu vəfasızlıq yaxınlarını, doğmalarını yandırdı, yaxdı. Hələ çox yandırıbyaxacaq – köhnəlmiş qəzet səhifələrində yazılarını gördükcə, təbəssümlü baxışlarını, şaqraq gülüşünü, duzlu-məzəli söhbətlərini xatırladıqca gözümüz axtaracaq səni – toyda, nişanda, iclasda görmədikcə içimiz göynəyəcək. Səni saxlaya bilmədiyimiz üçün özümüzü qınayacağıq. Bunun artıq gec olduğunu bilsək də, qınayacağıq. Çünki gücümüz buna çatacaq.

Bizə həyatda yaşamağı öyrədirdin, ancaq öz ömrün yarımçıq qaldı.

Dost itkisi ağır olur, Elman müəllim! Çox yaşamışdın belə itkini. O gün bizə də yaşatdın. O itkilərə vida sözləri yazmışdın. Bu gün vida sözlərini sənə yazırıq.

Hələ də sənin bizimlə bir sırada olmamağına inanmağımız gəlmir. Amansız əcəlin səni belə asanlıqla əlimizdən alması bütün varlığımızı göynədir. Hələ çox göynədəcək. Düşünürük ki, biz qələm dostları bu ayrılığa dözə bilmiriksə, övladları, nəvələri necə dözür buna? Və onu da düşünürük ki, əcəlin zamansız hökmünü hələ heç kim dəyişə bilməyib. Həyatın özü ilə yaşıd olan bu qanun, bu hökm heç kimə, heç nəyə baxmadan öz bildiyini edir dünya bina olandan.

Sən təmizlik, saflıq simvoluydun. Ömrün boyu da belə yaşamışdın, övladlarını da belə öyrətmişdin. Bu dünyada onları Elman müəllimsiz qoydun...

... 73 il bundan əvvəl – 1950-ci il may



ayının 15-də Şərur rayonunun Düdəngə kəndində doğulmuşdu. Jurnalistika fəaliyyətinə 1968-ci ildən rayon qəzetinin mətbəəsində mürəttib köməkçisi kimi başlamışdı. 1969-1974-cü illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil almışdı. Hüseyn Əbdülhüseynov, Cəfər Məmmədov, Cəfər Əliyev, Mikayıl Əliyev və digər peşəkarlarla çiyin-çiyinə işləmişdi.

Şəxsən tanıdığımız bu ziyalıların qələmindən çıxan yazılar hesabına ozamankı “İşıqlı yol” qəzeti respublika miqyasında ən yaxşı rayon qəzetlərindən sayılırdı. Bunun bir səbəbi də qəzetdə tənqidi yazılara, xüsusən felyetonlara geniş yer verilməsi ilə bağlı idi. Bu janrda yazanların sırasında Elman müəllimin xüsusi yeri vardır.

Onun jurnalistikasında minimum söz, maksimum məna başlıca amil idi. Elman Telmanoğlunun redaktorluğu dövründə qəzetdə əməkdaşlıq edən bir jurnalist söhbət edir ki, bir dəfə rayon Mərkəzi Xəstəxanasının baş həkiminin rüşvətxorluğundan bəhs edən “Xəstə çox şey dilər, lakin ona qismət olmaz” adlı felyetonunda rüşvətxor obrazı yaratmağa cəhd elədiyi birsəhifəlik yazının üstündən Elman müəllim xətt çəkib belə bir cümlə yazmışdı: “Baş həkim yumruğunu stola elə çırpdı ki, küncdəki ayağıbağlı xoruz dik atıldı”. Vəssalam! Heç bir bənzətmə olmadan obraz göz önündə canlanır.

60-cı illərdən qəzetin nəzdində yaranmış “Şərur qönçələri” ədəbi dərnəyi həmin illərdə Elman Məmmədovun təşkilatçılığı ilə şərurlu gənc ədəbi qüvvələrin məbədgahına çevrilmişdi. Dərnəyin yetirməsi sonralar ölkəmizin ictimai-siyasi həyatında, ədəbi-bədii mühitində öz dəstxətləri ilə tanınmışlar. Akademik İsa Həbibbəyli, Muxtar İmanov, Asim Yadigar, Əhməd Sədərəkli, Vaqif Məmmədov, Budaq Təhməz, İnqilab Orxan, sonralar dərnəyin rəhbəri olmuş İbrahim Yusifoğlu…

İllər sonra görkəmli yazıçı, rus ədəbi tənqidinin banisi Belinskinin bir məşhur kəlamı onlar arasında belə improvizə olunmuşdu: “Bütün Rusiya Qoqolun “Şinel”indən çıxdığı kimi şərurlu ədəbi qüvvələr də “Şərur qönçələri”nin, konkret olaraq, Elman müəllimin “şinelindən çıxıb”. İndi onların əksəriyyəti Şərurdan uzaqlarda yaşasalar da, ata yurduna gələndə onunla da əzizləri kimi görüşür, onu ziyarət edir, həmin günləri sevə-sevə xatırlayırdılar. Daha onunla görüşə bilməmək ağrısı içimizi göynədir...

Təəssüf ki, nümunəvi yerli mətbuat orqanı kimi özünəməxsus inkişaf və yüksəliş yolu keçmiş “İşıqlı yol” 90-cı illərdə dövrün məlum dağıdıcı prosesləri ilə üzləşdi. Özlərini boz qurd elan edən bir qrup cəbhəçi redaksiyanın qapısını mismarladı. Səbəbi belə izah etdilər ki, qəzet sovet hökumətinə, partnomenklaturaya xidmət edib, rayon partiya komitəsinin orqanı olub. Ancaq sənətinə vurğunluq, işinə məsuliyyət və sədaqət elə qadağaları dəf etməkdə Elman müəllimin köməyinə gəldi. Naxçıvan Mətbuat Şurasının 2007-ci ildə çap etdirdiyi “Jurnalist” almanaxında Elman Telmanoğlunun “Jurnalistin vicdanı gecə-gündüz ayıq olmalı, onu büdrəməyə, xırda duyğuların əsiri olmağa qoymamalıdır” adlı yazısı o dövrün keşməkeşlərini yaşamaq üçün həm ən etibarlı mənbə, həm də həmkarımızın cilalanmış qələminin göstəricisidir.

... Keçmişinə boylananda, dünəninə baxanda özü, övladları, nəvələri, nəticələri, dost-tanışları üçün utanc gətirməyəcək bir ömür yaşadığından qürur hissi keçirirdi Elman müəllim. Çətinliklərindən, ağrı-acılarından danışmağı sevmirdi. Ağlı kəsəndən dərdlə yoldaşlıq, qayğıyla qardaşlıq eləmişdi. Bundan bezikmək nədir, cəfakeşliyi, fədakarlığı bir yaşamaq vasitəsi bilmişdi. Çətin mənzil şəraitində illərlə ağır yataq xəstəsi olan həyat yoldaşına həyan olmuşdu. O, həyatdan köçəndən sonra taleyin daha bir ağır zərbəsi ilə üzləşdi. Oğlu Kamran gənc ikən qəfil ölümü ilə sinəsinə dağ çəkdi onun. Bütün bunlara rəğmən müsbət enerji ilə taleyin bəxş etdiyi ömür payını yaşayırdı. Deyirdi ki, şərəfli qocalıq başqa şeydir. O ucalıqdır. Hər yeni yaş əvvəlkinin hesabatıdır, sabaha yeni baxışdır, yeni planlar, arzulardır... Həyata qırılmaz tellərlə bağlanmaqdır. Yaşımdan qorxmuram, – deyirdi. Axı əgər hələ də enerjin, yaşamaq həvəsin, həyata və insanlara sevgin varsa, yaşın nə önəmi? Gələcəyə xoş güman insan xislətində, təbiətindədir, insan qəlbinin əbədi, kövrək ehtiyacıdır. İnanırsan ki, hər şey daha yaxşı, daha gözəl olacaq. İnsanlar bir-birilə daha doğma, daha yaxın olacaqlar. Doğma Qarabağımızın azad edildiyinin şahidi olmaq istəyirdi və çox şükür ki, arzusuna çatdı və o günü gördü.

Bu gün aramızda yoxdur Elman Məmmədov. Yeri görünür. Onu tanıyanlar yaşadıqca da bu dəyərli ziyalımızın yeri görünəcək. Təsəllini onda tapırıq ki, o, mətbuatda Elman Məmmədov məktəbi yaradıb. Bu məktəb onu tanıyan jurnalistlərin mətbuatı öyrənmək ünvanıdır. Həqiqəti düzgün söyləmək, rastlaşdıqları neqativ hallara qarşı mübarizə aparmağı öyrənmək ünvanıdır. Bu məktəbin qapısı ömrünü mətbuata bağlayanların üzünə həmişə açıqdır.

Elman müəllim, dost itkisi ağır olur!

Səni qoruya bilmədiyimiz üçün bizi bağışla, əziz dostumuz!

Qəbrin nurla dolsun!

**Hüseyn ƏSGƏROV**
**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalistləri***

## Memorial kompleksin inşası aparılır



Şanlı Zəfər tariximiz olan Vətən müharibəsi iştirakçılarının, şəhid və qazilərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında memorial komplekslər salınması nəzərdə tutulub. Layihə çərçivəsində artıq Babək şəhərində “Şəhidlər Parkı” memorial kompleksinin inşası aparılır.

2500 kvadratmetr ərazidə salınan parkdakı abidənin hündürlüyü 9, ay-ulduz platformanın diametri 12 metrdir. Parkda Babək şəhidlərinin rəsmlərinin əks olunduğu lövhə də inşa edilir. Parkın ərazisində yaşıllıq sahələri salınacaq.

“Şəhidlər Parkı” memorial kompleksinin inşası zamanı şəhid ailələrinin fikir və təklifləri planlaşdırılıb.

Qeyd edək ki, 2000-ci ildə Babək şəhərinin mərkəzində inşa edilən abidənin götürülməsi və ərazisinin yeni salınan “Şəhidlər Parkı” memorial kompleksinin sahəsinə daxil edilməsi planlaşdırılıb.

Abidə kompleksinin noyabr ayında təhvil verilməsi nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

## İdmançımız Tbilisi marafonunda uğur qazanıb

İdmançımız Tbilisi marafonundan medalla qayıdır. Gürcüstanın paytaxtında “TbilisiMarathon-2023” adlı beynəlxalq idman tədbiri reallaşıb. Beşinci dəfə təşkil olunan ənənəvi marafonda 2000-dən çox iştirakçı müvafiq olaraq uşaq qaçışı (0,5 və 1,2 kilometr), 10 kilometr məsafəyə qaçış və yarı marafonda (21 kilometr) mübarizə aparıb.



10 kilometr məsafə üzrə qeydiyyatdan keçən Naxçıvan idmançısı Əmrah Nağıyev start xəttindən finişədək 37 dəqiqə 4 saniyə vaxt sərf edib. Nəticədə, təmsilçimiz ümumi sıralamada 13-cü yerdə qərarlaşıb. Bununla yanaşı, həmin göstəricilər sayəsində Əmrah 20-24 yaş qrupunun qalibi olub. İdmançımız marafonun medalına layiq görülüb.

Xatırladaq ki, bundan öncəki Tbilisi və İstanbul marafonlarında uğurla çıxış edən Əmrah Nağıyev atletika üzrə Azərbaycan birincilikləri, eləcə də beynəlxalq turnirlərin qalibi və mükafatçısıdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti
### *aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. Memarlıq və mühəndislik fakültəsi
2. Tibb fakültəsi
3. Xarici tələbələr üzrə dekanlıq

***Kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Ümumi tarix kafedrası
2. Elektroenergetika mühəndisliyi kafedrası
3. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası
4. İnformatika kafedrası
5. Rus və Şərq dilləri kafedrası
6. İngilis dili və metodika kafedrası
7. İqtisadiyyat və marketinq kafedrası
8. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası
9. Əczaçılıq və biokimya kafedrası

***Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün***

1. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası – müəllim – 1 yer (0,5 ştat)
2. Azərbaycan dili və ədəbiyyatı kafedrası – dosent – 1 yer
3. Ümumi tarix kafedrası – dosent – 1 yer
4. Muzeyşünaslıq, Arxiv işi və kitabxanaçılıq kafedrası – dosent – 1 yer
5. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası – baş müəllim – 1 yer, müəllim – 1 yer
6. Elektroenergetika mühəndisliyi kafedrası – müəllim – 1 yer
7. Elektronika və İnformasiya texnologiyaları kafedrası – professor – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer, müəllim – 1 yer, müəllim – 1 yer (0,5 ştat)
8. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası – dosent – 1 yer
9. Ümumi riyaziyyat kafedrası – dosent – 1 yer, baş müəllim – 4 yer, baş müəllim – 1 yer (0,5 ştat), müəllim – 1 yer
10. Ümumi və nəzəri fizika kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
11. İngilis dili və tərcümə kafedrası – dosent – 1 yer, baş müəllim – 2 yer, müəllim – 2 yer, müəllim – 1 yer (0,5 ştat)
12. İngilis dili və metodika kafedrası – baş müəllim – 2 yer
13. Beynəlxalq ticarət və menecment kafedrası – dosent – 1 yer
14. Bələdiyyə və turizm kafedrası – baş müəllim – 1 yer
15. İqtisadiyyat və marketinq kafedrası – müəllim – 1 yer
16. Orkestr alətləri və dirijorluq kafedrası – dosent – 1 yer
17. Musiqi təlimi kafedrası – baş müəllim – 1 yer, baş müəllim – 1 yer (0,5 ştat)
18. Təsviri incəsənət kafedrası – baş müəllim – 1 yer
19. Fortepiano kafedrası – müəllim – 3 yer, müəllim – 1 yer (0,5 ştat)
20. Xalq çalğı alətləri kafedrası – dosent – 1 yer
21. Teatr və mədəniyyətşünaslıq kafedrası – baş müəllim – 1 yer
22. Pedaqogika və psixologiya kafedrası – dosent – 2 yer, baş müəllim – 1 yer
23. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrası – baş müəllim – 1 yer
24. Bədən tərbiyəsi və idman kafedrası – dosent – 1 yer, baş müəllim – 2 yer
25. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası – dosent – 1 yer
26. Kimya kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer (0,5 ştat)
27. Biologiya kafedrası – dosent – 1 yer (0,5 ştat), baş müəllim – 2 yer, müəllim – 1 yer
28. Baytarlıq təbabəti kafedrası – dosent – 1 yer (0,5 ştat), baş müəllim – 2 yer
29. Coğrafiya kafedrası – baş müəllim – 1 yer
30. Hüquq fənləri kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
31. Beynəlxalq münasibətlər kafedrası – dosent – 1 yer (0,5 ştat), müəllim – 1 yer (0,5 ştat)
32. Fəlsəfə və sosial iş kafedrası – dosent – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer (0,5 ştat), müəllim – 2 yer
33. Əczaçılıq və biokimya kafedrası – müəllim – 1 yer, müəllim – 2 yer (0,5 ştat)
34. Təməl tibb fənləri kafedrası – baş müəllim – 2 yer, müəllim – 1 yer
35. Ümumi təbabət və tibbi kliniki fənlər kafedrası – dosent – 2 yer (0,5 ştat), baş müəllim – 1 yer, müəllim – 1 yer, müəllim – 1 yer (0,5 ştat)
36. Stomatologiya kafedrası – müəllim – 2 yer (0,5 ştat)

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

### İtmişdir

Adəm Uçanın adına verilmiş A 06 – 476271 nömrəli kimlik itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Fariz Əhmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 590